# Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərin ilkin nəticələrini açıqlayıb

(Əvvəli 1-ci səhifədə).

Sonra Məzahir Pənahov seçkilərin ilkin nəticələrinə görə liderlik edən namizədlərin siyahısını diqqətə çatdırmışdır.

* * *

116 saylı Qəbələ seçki dairəsi üzrə Fəttah Heydərov 5 namizəd arasında ən yüksək səs toplayaraq 80,6 faiz səs qazanmış və Milli Məclisə deputat seçilmişdir.

117 saylı Oğuz—Qəbələ seçki dairəsi üzrə isə Aqiyə Naxçıvanlı 7 namizəd arasında ən yüksək səs toplayaraq 70,8 faiz səs qazanmış, Milli Məclisə deputat seçilmişdir.

# Yüksək fəallıq

116 saylı Qəbələ seçki dairəsinin 3 saylı seçki məntəqəsi Qəbələ şəhər 3 saylı tam orta məktəbində yerləşir. Məntəqə-seçki komissiyasının üzvləri səhər saat 7-dən məntəqəyə toplaşmışdılar. Onlar bir daha məntəqənin hazırlığını gözdən keçirir, səliqə-sahmana diqqət yetirirdilər. Saat 8-ə 10 dəqiqə




qalmış hər şey bir daha yoxlanmış hazır vəziyyətə gətirilmişdi. Saat 8-də seçki məntəqəsinin sədri Müxtəsər İsayev məntəqənin açıldığını, səsvermənin başlandığını elan etdi. Yağışlı-çiskinli hava olmasına baxmayaraq seçicilərin ardı arası kəsilmirdi. Yüksək fəallıq hiss olunurdu. Uzun illər rəhbər vəzifədə çalışmış hazırda fəal ictimaiyyətçi olan seçici Aslan Cəlilova müraciət edirik: - Aslan müəllim seçkiyə hansı əhval-ruhiyyə ilə gəlmisiniz?

-Əlbəttə çox yüksək əhval-ruhiyyə ilə. Sabitliyə, sakitliyə balalarımızın, nəvələrimizin, bütün gələcək nəsillərimizin gözəl gələcəyinə səs vermək üçün buradayam.

Məntəqədə seçki yüksək səviyyədə, şəffaf, demokratik qaydada keçdi.

* * *

116 saylı Qəbələ Seçki Dairəsinin Qəbələ şəhərindəki 5 saylı seçki məntəqəsində seçicilərin yüksək fəallığı hiss olunurdu. Məntəqə seçki komissiyasının sədri Şahsoltan Şəkərxanov səhər saat 8:00-da məntəqədə seçkilərin başlandığını elan etdi. Yaşı 80-i adlamış Süleyman Mehdiyev səsvermə otağına ilk daxil olanların önündə gedirdi. Süleyman kişi sabitliyə, sakitliyə, inkişafa səs vermək üçün sübh alaqaranlıqdan bura gəldiyini bildirdi:

—Şükür olsun böyük Allaha ki, ölkəmizdə əmin-amanlıq, sakitlik hökm sürür. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu əmin-amanlığı, inkişafı möhtərəm Prezidentimiz İlham Əliyev bacarıqla qoruyub saxlayır, davam etdirir. Mən həyatımda İkinci Dünya Müharibəsindən bəri çox hadisələrin şahidi olmuşam. 1990-cı illərin əvvəllərini də görmüşəm. Uzun çörək növbələrinə durub evə, uşaqların yanına boş qayıtdığım vaxtlar da olub. Ona görə biz bu günkü sakit, qorxusuz həyatımıza, bolluğa, inkişafa səs verməliyik.

Süleyman kişinin ardınca ağsaqqal Bayram Xasıyev səsvermə otağına daxil oldu. O da sabitliyə, sakitliyə, inkişafa səs vermək üçün burada olduğunu bildirdi.

Elməddin Qədirov, Zərifə Cəfərli səsvermədə ilk dəfə iştirak edirdilər.

Elməddin dedi:

—Mən qanlı-qadalı günlər görməmişəm. Ötən əsrin həmin illəri barədə böyüklərdən eşitmişəm. Başa düşürəm ki, təsadüfi siyasətbazlara səs vermək olmaz. Ölkəmizin daha firavan gələcəyinə səs vermək üçün buradayam.

Havanın yağışlı, soyuq olmasına baxmayaraq insanlar axın-axın məntəqəyə gəlir, doğma Azərbaycanımızın daha da tərəqqisi naminə səs verirdilər.

**Qüdrət SƏMƏDOV.**

* * *

**Soltannuxa 13 və 14 saylı seçki mənətəqələri.** Bu məntəqələr Soltannuxa kənd tam orta məktəbində yerləşir. Hər iki məntəqədə qanunvericiliyin tələblərinə uyğun olaraq seçkilərə vaxtında və tam hazırlıq görülmüşdü. Seçicilərin maarifləndirilməsinin, təbliğat və təşviqat kampaniyasının uğurla aparılmasının nəticələri artıq səsvermə günü özünü göstərirdi.

Məntəqə seçki komissiyalarının üzvləri səhər tezdən, yəni seçkilərin başanmasından bir saat əvvəl məntəqələrə gəlmiş, səsvermə qutuları yoxlanılaraq möhürlənmiş, seçicilərin səsverməsinə digər hazırlıq işləri və komissiya üzvləri arasında vəzifə bölgüsü aparılmışdı. Saat 8-00-da komissiya sədrləri Çingiz Əsədov və Fərrux Kərimov müvafiq olaraq hər iki məntəqədə səsvermənin başlandığını elan etmişlər. Məntəqələrdə müşahidəçilər üçün də lazımi şərait yaradılmışdı. Həmin gün şıdırğı yağış yağmasına baxmayaraq ilk saatlardan seçicilərin fəallığı açıq-aydın nəzərə çarpırdı.

Dairə üzrə bir yerə 5 namizəd mübarizə aparırdı. Məntəqələrin heç birində seçicilərə qarşı təzyiq, təsir və qanun pozğunluğu nəzərə çarpmırdı. Bunu yerli müşahidəcilərdən Qurbanəli Daşdəmirov, İlhamə Həmidova, «Ümid» partiyasının nümayəndəsi Yasin Salamov, Əfsarə Ağasıyeva və başqaları da təsdiq etdilər. Seçicilər məntəqələrə daxil olur, səsvermə üçün onlara tam sərbəstlik verilir, hər bir seçici öz iradəsini sərbəst ifadə edərək istədiyi namizədə səs verərək məntəqəni tərk edirdilər.

Saat 12-00-dan bir qədər keçmiş 13 saylı seçki məntəqəsinin sədri Çingiz Əsədova yaxınlaşırıq, indiyədək seçicilərin davamiyyəti barədə olan vəziyyətlə maraqlanırıq. O, havanın yağmurlu olmasına baxmayaraq davamiyyətin yaxşı olduğunu söyləyir və 25 faizi keçdiyini qeyd edir. Sədr inamla deyir ki, əvvəlki bütün seçkilər zamanı da məntəqədə səsvermə ilk mərhələdə baş tutub. Yəqin ki, bu günki seçkilərdə də ənənə davam edəcəkdir.

Elə 14 saylı seçki məntəqəsinin sədri Fərrux Kərimovda da bu inam vardı. O, qeyd etdi ki, məntəqə seçki komissiyasının üzvləri seçicilər arasında yaxşı maarifləndirmə işi aparmışlar. Saat 12-00-a olan məlumata görə 971 seçicidən 208 nəfəri seçkidə iştirak etmişdir. Lakin bu saatlarda gördüyünüz kimi davamiyyət artmışdır. Axşama qədər 500-ü keçəcəkdir.

Həmin gün axşam məntəqə sədrləri ilə telefon əlaqəsi yaradırıq. 13 saylı seçki məntəqəsi üzrə 767 nəfər seçicidən 438 nəfəri (57 faiz) 14 saylı seçki məntəqəsi üzrə 971 nəfərdən 554 nəfəri (57,1 faiz) seçkidə iştirak etmiş və hər iki məntəqədə seçkilər baş tutmuşdur.

**Nadir ATAKİŞİYEV.**

# Prezident İlham Əliyevin azad sahibkarlığın inkişafına göstərdiyi qayğı ölkəmizdə əldə olunan uğurların əsasını təşkil edir

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ilin oktyabrından başlayaraq ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilir. Cənab İlham Əliyev bütün fəaliyyətini insanlara qayğı və diqqət prinsipləri üzərində qurmuş, sosialyönümlü siyasət strategiyasını həyata keçirmişdir.

Möhtərəm cənab İlham Əliyevin ölkə Prezidenti kimi fəaliyyətə başlamasından keçən 12 il ərzində vətənimiz və xalqımız üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramları hazırlanmış və işlək mexanizmlər əsasında həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramları təkcə paytaxt Bakı şəhərinə deyil bölgələrə də sərmayə qoyuluşunu əhəmiyyətli dərəcədə artırmışdır. Regionlarda əlverişli sərmayə qoyuluşu mühitinin yaradılması nəticəsidir ki, 12 ildə qeyri-neft sektoruna qoyulan investisiyalar 12,9 dəfə, daxili investisiyalar 14,6 dəfə artmışdır. 2003-cü ildən bəri bölgələrə bütün mənbələr hesabına 55 milyard manatdan çox vəsait yönəldilmişdir. Nəticədə 12 il ərzində ölkədə 1,4 milyon iş yeri açılmışdır ki, onun 1 milyondan çoxu daimi iş yerləridir.

İqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul 2015-ci ilin yanvar-sentyabr aylarında 3,7 faiz artmış, qeyri-neft sektorunda real artım tempi 6,4 faiz təşkil etmişdir.

Müsbət hallardan biri odur ki, neftin qiymətinin kəskin şəkildə düşməsinə baxmayaraq əhalinin gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz artmışdır. Yanvar-avqust aylarında orta aylıq əməkhaqqı 4,4 faiz artaraq 460 manata yüksəlmiş, 87 min yeni iş yeri açılmışdır.

(Ardı 3-cü səhifədə)